# Hüquqi dövlət quruculuğu və aparılan islahatlar

Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin 20 illik dövlət idarəçiliyi dövründə əldə edilmiş nailiyyətlər demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu sahələrindən də yan keçməmişdir. Bu müddətdə ölkənin qanunvericilik bazası əsaslı dərəcədə təkmilləşdirilmiş, hüquq və azadlıqların təmin edilməsi sahəsində bir sıra qanunvericilik aktları qəbul edilmiş, ölkəmiz bu sahədə mövcud olan beynəlxalq konvensiyalara qoşulmuş, cinayət mühakimə icraatını tənzimləyən qanunvericilik aktlarında çoxsaylı dəyişikliklər edilmişdir ki, bütün bunlar da ölkənin məhkəmə-hüquq sisteminin təkmilləşməsinə, hüquq və azadlıqların daha etibarlı müdafiəsinə, cinayət mühakimə icraatının qərəzsizliyi, obyektivliyi və ədalətliliyinə müsbət təsir göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrində 18 mart 2009-cu il və 26 sentyabr 2016-cı il tarixli referendumlarla cəmiyyətdə yaranan yeni ictimai münasibətlər nəzərə alınmaqla insan hüquqları və azadlıqlarını tənzimləyən və bir sıra digər müddəalarında əhəmiyyətli dəyişikliklər edilmişdir.

Bu baxımdan dövlətimizin demokratik simasının yeni və mütərəqqi əlaməti kimi xarakterizə edilən, idarəetmənin səmərəliliyi və çevikliyini artıran Birinci Vitse-Prezident institutu yaradılmaqla ölkəmizin ictimai-siyasi, sosial və mədəni həyatında uzun müddət oynadığı vacib və fəal rolu nəzərə alınaraq Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın bu mühüm dövlət vəzifəsinə təyinatı dövlətçiliyin qorunması və qüdrətlənməsi naminə atılmış önəmli və strateji addım olmuşdur.

"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli və "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanları məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində vacib əhəmiyyət kəsb etmişdir. Həmin fərman və sərəncamların icrası məqsədilə hazırlanmış və Azərbaycan Respublikası Milli Məclisi tərəfindən baxılaraq qəbul edilmiş müvafiq qanunlarla Azərbaycan Respublikasının Cinayət və Cinayət-Prosessual Məcəllələrində dəyişikliklər edilərək bir sıra əməllər dekriminallaşdırılmış, cinayət məsuliyyətindən azad etmənin yeni əsasları müəyyən edilmiş, ev dustaqlığı qətimkan tədbiri müstəqil qətimkan tədbiri kimi müəyyən edilmiş, azadlıqdan məhrum etmə cəzasına alternativ olan daha yüngül cəzalar Cinayət Məcəlləsinə daxil edilmiş, bir sıra cinayətlərə görə cinayət məsuliyyəti yaradan məbləğlər artırılmış, cəzaların sanksiyaları azaldılmış və digər əhəmiyyətli dəyişikliklər edilmişdir.

Bu çərçivədə cənab Prezidentin dövlət quruculuğu sistemində həyata keçirdiyi islahatlar prokurorluq orqanlarında da öz əksini tapmışdır. Belə ki, 2003-cü ildə ölkəmiz Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasına, Avropa Şurasının Korrupsiya ilə əlaqədar cinayət və mülki hüquqi məsuliyyət haqqında konvensiyalarına qoşulduqdan və 13 yanvar 2004-cü il tarixdə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildikdən sonra Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının 36-cı maddəsinin icrası ilə əlaqədar ixtisaslaşmış qurumların - Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya və Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin, eləcə də, sözügedən beynəlxalq aktın 58-ci maddəsinin icrası ilə əlaqədar Maliyyə Monitorinqi Xidmətinin yaradılması dövlət idarəçiliyinin təkmilləşdirilməsinə əlverişli zəmin yaratmaqla görülən işlərin effektivliyinin artırılmasına xidmət etmişdir. Ölkə başçısı tərəfindən Azərbaycan Respublikası Prokurorluğuna göstərilən etimadın nəticəsi olaraq Korrupsiyaya qarşı Mübarizə İdarəsi Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 mart tarixli Sərəncamı ilə Baş prokuror yanında yaradılmışdır. Ötən müddət ərzində İdarənin fəaliyyəti və strukturu daim təkmilləşdirilmiş, ştatı və səlahiyyətləri artırılmışdır.

2011-ci ildə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinə korrupsiyaya qarşı mübarizə sahəsində istintaq və təhqiqat funksiyası ilə yanaşı, Müstəqil Dövlətlər Birliyi məkanında, habelə Azərbaycan prokurorluğunun tarixində ilk dəfə olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti də verilmiş, bu təcrübə idarənin fəaliyyətində səmərəliliyi əhəmiyyətli dərəcədə artırmışdır. Təsadüfi deyildir ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Anti-Korrupsiya Şəbəkəsi tərəfindən bu qurum beynəlxalq aləmdə səmərəli antikorrupsiya fəaliyyətinin nümunəvi modeli kimi tövsiyə edilmişdir.

Dövlət başçısı 2013-cü ilin sentyabr ayının 30-da "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair Dövlət Proqramı"nın icrası qaydasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binasının açılışı mərasimində iştirak etmişdir.

14 fevral 2014-cü il tarixdə "Prokurorluq" və "Prokurorluqda qulluq keçmə haqqında" Azərbaycan Respublikası qanunlarına edilmiş əlavə və dəyişikliklərlə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi Baş İdarəyə çevrilərək müstəqil qurum kimi Prokurorluğun sisteminə daxil edilmişdir.

Prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorlarının formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 sentyabr tarixli, 3065 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı təsdiq edilmişdir.

Prokurorluq orqanları tərəfindən 2020-ci ildə həyata keçirilməsinə başlanmış islahatların davamı kimi həmin ildən başlayaraq korrupsiyaya qarşı mübarizə sahəsində aşkarlığın təmin edilməsi ilə bağlı maarifləndirmə işinin həyata keçirilməsi məqsədilə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı sosial şəbəkə səhifələrindən vətəndaşları maraqlandıran məsələlərlə bağlı daxil olmuş çoxsaylı suallar mütəmadi qaydada cavablandırılır, zərurət yarandığı hallarda dərhal müvafiq araşdırmalar aparılır, həmçinin müxtəlif maarifləndirici videoçarxlar, korrupsiya cinayətlərinin istintaqı və bu sahədə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri, beynəlxalq əməkdaşlıq məsələləri ilə bağlı məlumatların hazırlanaraq ictimaiyyətə təqdim olunması təmin edilir.

"Heydər Əliyev İli" çərçivəsində məsuliyyətini dərindən dərk edən hər bir prokurorluq işçisi tərəfindən bu müddətdə üzərlərinə düşən vəzifələrin layiqincə icrası hədəf seçilməklə ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunması, qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi naminə lazımi tədbirlərin görülməsini təmin ediləcəkdir.

**Şahmurad SADIQZADƏ,**
**Qəbələ rayon prokurorluğunun müstəntiqi,**
**I dərəcəli hüquqşünas.**

# Şuşa ocağı - Qəbələ ocağının istisilə yaşayan ömür

Onun 83 yaşı var, Şuşada doğulub boya-başa çatıb. Uşaqlığını, gəncliyinin ən gözəl anlarını Azərbaycanın dilbər guşəsi olan Qarabağda - Şuşada yaşamış, əməli fəaliyyət göstərmişdir. Şuşanın inkişafı üçün bacarığını əsirgəməmiş, ömrünün 40 ilini təhsilə həsr etmişdir.

Həmçinin 55 il keçirilən seçkilərdə 30 il Şuşada, 25 il Qəbələ rayonunda seçki məntəqəsinin sədri işləmişdir.

Şuşada yaşayarkən Hüsü Hacıyev adına kolxozun sədri olmuşdur. Çalışqanlığına görə Şuşa Rayon Partiya Komitəsinin büro və plenum üzvü olmuş, vilayət, rayon və yerli sovetlərin deputatı seçilmişdir.

I Qarabağ müharibəsinin veteranıdır. Onu da qeyd edək ki, onun oğlu ikinci qrup Qarabağ müharibəsi əlilidir.

Kimdir bu fədakar, vətənpərvər insan?! O, hazırda Qəbələ sakini, məcburi köçkün olan Həsən Hüseyn oğlu Quliyevdir.

Onunla söhbət edərkən səsində bir Vətən həsrəti və bu həsrətin artıq sevinc «qoxusu»nu hiss etdik. Əslən qarabağlı, azad Şuşanın Qəbələ vətəndaşı! Şuşaya qayıdacağı hər günü, hər saatı belə həsrətlə gözləyən biri!.. O, Vətənində ömrünün ahıl çağlarında olsa belə «azad» yaşamaq; alnından silinən «məğlub ölkə vətəndaşı» və qaçqın, məcburi köçkün sözlərinin adının qarşısından silinməsi sevincini Zəfər tarixli bir ölkənin, Şuşanın vətəndaşı adının qürurunu yaşamaq istəyir.

1990-cı illərin hadisələri yəqin ki, hər bir vətənpərvər insanın, hər vətəndaşın yaddaşında iz salmışdır. Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması mənə elə gəlir ki, xalqımızın ən böyük acısı idi... O illərin ağrıacısını hərtərəfli yaşayanlardan biri də mən olmuşam...



1993-cü ildə, qaçqınlığın ağır günlərində belə gələcək nəslin təhsili, təlim-tərbiyəsi bizlərin diqqət mərkəzində olmuşdur. Məcburi köçkün kimi yaşasaq da, uşaqların, yeniyetmə gənclərin aldığı mənəvi «yaraların» acılarına rəğmən onların sabahlarını düşünmək, sabahkı nəslin sağlam yetişməsi üçün hamılıqla bütün səy və bacarıqlardan istifadə etmək bizlərin ümdə vəzifəsi idi. Ölkəmizin müxtəlif bölgələrində məskunlaşan Qarabağ sakinləri gələcək nəslin mübariz, savadlı və zəkalı yetişməsi üçün ölkə rəhbərliyinin bütün imtiyazlarından düzgün və səmərəli bəhrələnməli idilər. Buna görə də ilk növbədə təhsili gücləndirmək və ayrı-ayrı bölgələrdə də olsa aid olduğu məkanın adıyla təhsil ocaqlarında fəaliyyət göstərmək lazım idi.

Biz şuşalılar, yəni Qəbələ rayonunda məskunlaşan məcburi köçkünlər burada bir məktəb açıb övladlarımızı təhsilə cəlb etmək istədik. Bu işdə mənim təşkilatçılığımı nəzərə alaraq bu iş mənə tapşırıldı.

Çətinliklərlə üzləşsək də, 1993-cü ildə Şuşa 24 saylı tam orta məktəbini açdıq. Yer, məkan isə - Qəbələ hərbi şəhərciyinin rus bölməsi tədris olunan məktəbində ikinci növbə ilə məktəb fəaliyyətə başladı.

Qəbələli və şuşalı müəllimləri bu təhsil müəssisəsində işləməsi üçün işlə təmin etdik. Bir müddət sonra burada işlərin çətinliyini nəzərə alaraq bir qədər geniş yer axtarmalı olduq, axı şagirdlərin sayı artırdı. Qəbələ «Şahdağ» turist şəhərciyində 12 otağın boş olduğunu öyrəndik. Rayon icra hakimiyyətinə müraciət etdik və həmin müəssisənin sahibi ilə əlaqə yaratdıq. Razılıq aldıqdan sonra həmin şəhərcikdəki səliqəli otaqlarda məktəb dərslərimizə davam etdik. Dərslərin keçirilməsi üçün məktəb ləvazimatlarını çətinliklə də olsa əldə etməyə çalışırdıq. Xüsusilə qış mövsümündə otaqları odun peçləri ilə isidirdik... Meşə idarəsinin işçisi Lütvi kişi bizə o illərdə çox köməklik etmişdir. İnsan həyatda qarşılaşdığı pislikləri də, hörmət-izzəti, xeyirxah əməlləri də heç vaxt unutmur. Ona görə də Qəbələyə gəldikdən sonra yerli camaatdan gördüyümüz yaxşı əməllər bizim mənəvi acılarımıza məlhəm olmuşdur.

Biz burada özümüzü «vətənsiz» hiss etməmişik. Lakin hər kəsin doğulduğu məkan onun vətəninin başlanğıc nöqtəsidir. Məhz buna görə də Şuşa həsrəti bizim ən acılı dərdimiz idi.

Təkcə şuşalılara deyil, yurd-yuvasından məcburən köçkün olan hər kəs, bu rayonda məskunlaşan hər bir vətəndaş qəbələlilərin doğma münasibətindən həmişə ağızdolusu danışırlar. Onlara bir qarabağlı kimi, xalqın bir övladı kimi minnətdaram. Az vaxt deyil, 83 illik ömrümün 32 ilini məhz Qəbələdə yaşayıram. Ömrümün ən xoş günüdür - Şuşamızın əsarətdən qurtarılması, azad olması! Tarixi yenidən yazan şəhadət yolçularının ruhu qarşısında, sağlamlığını itirən qazilər və döyüşən oğullarımız qarşısında baş əyirəm.

Şuşanın azadlığı həm də dövlətimizin, qüdrətli ordumuzun, Ali Baş Komandanımızın misilsiz şücaətidir!

Mən də yaşadığım bu ömürdə həmişə xalqıma, xüsusilə şuşalılarıma xidmət etməyə çalışmışam. Əməli fəaliyyətimə görə Şuşa rayon rəhbərliyi tərəfindən mükafata layiq görülmüşəm. Təhsil sahəsinin fəaliyyəti ilə əlaqədar «Azərbaycan müəllimi» qəzetində maraqlı materiallarla çıxış etmişəm. Ən böyük mükafatım Zəfər xəbəri olmuşdur.

***İndi bütöv elim - bütöv taleyim,***
***Dünyanın ən gözəl ölkəsindəyəm.***
***Ən uca zirvəyə könül bağlayan***
***Üçrəngli bayrağın kölgəsindəyəm.***

Ürəyimdə həsrət dolu bir arzum var: - Doğma evimə dönmək, əzizlərimizin, xüsusilə valideynlərimin məzarlarını ziyarət etmək!..

Ömür vəfa edərsə...

**Həsən QULİYEV,**
**Qəbələ şəhəri.**